UOT 334
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.306

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINDA NEFT FAKTORU: NEFT İXRACI GƏLİRLƏRİNİN ÜDM-YƏ TƏSİRİNİN REQRESSİYA ANALİZİ

**PÜNHAN HÜSEYNOV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*
*E-mail: punhan.huseynov@socar.az*

## Giriş

Azərbaycan iqtisadiyyatı uzun illərdir ki, neft sektoru ilə sıx bağlıdır və neft gəlirləri ölkənin ÜDM-nin formalaşmasında mühüm rol oynayır. Neft ixracından əldə edilən gəlirlər dövlət büdcəsinin əsas gəlir mənbələrindən biri olmaqla yanaşı, infrastruktur layihələri, sosial proqramlar və iqtisadi şaxələndirmə siyasətinin həyata keçirilməsində də həlledici əhəmiyyət daşıyır. Qlobal enerji bazarındakı qiymət dəyişiklikləri və Azərbaycanın neft ehtiyatlarının tükənmə perspektivi fonunda, neft ixracı gəlirlərinin ÜDM-ə təsirinin sistemli şəkildə qiymətləndirilməsi xüsusilə aktuallıq kəsb edir.

Bu tədqiqatın məqsədi Azərbaycan Respublikasında neft ixracından əldə edilən gəlirlərin ÜDM-ə təsirini ölçmək və iqtisadi inkişafda neft amilinin rolunu müəyyən etməkdir. Araşdırma çərçivəsində neft ixracının ÜDM-lə korrelyasiyası təhlil ediləcək, neft gəlirlərinin iqtisadi artım üzərindəki təsiri kəmiyyətcə qiymətləndiriləcək və uzunmüddətli perspektivdə iqtisadi dayanıqlılıq baxımından bu asılılığın mümkün nəticələri araşdırılacaq.

Bu araşdırmada reqressiya analizi tətbiq olunaraq, neft ixracından əldə edilən gəlirlərin Azərbaycan iqtisadiyyatına təsiri statistik olaraq ölçüləcək. Xətti reqressiya modeli vasitəsilə neft gəlirlərinin ÜDM-dəki dəyişikliklərlə əlaqəsi müəyyən ediləcək və modelin izahat gücü qiymətləndiriləcək. ANOVA analizi və əmsalların əhəmiyyətlilik testi ilə neft gəlirlərinin ÜDM-in dəyişməsində nə dərəcədə təsirli olduğu araşdırılacaq, nəticələr isə iqtisadi qərarvermə proseslərinə töhfə vermək məqsədilə şərh ediləcək.

Bu tədqiqat Azərbaycan iqtisadiyyatında neft ixracı gəlirlərinin rolu barədə mövcud akademik müzakirələrə empirik sübutlar təqdim edir. Reqressiya analizindən istifadə etməklə neft ixracı ilə ÜDM arasındakı əlaqə riyazi olaraq qiymətləndirilmiş və Azərbaycanın enerji resurslarına əsaslanan iqtisadi modelinin dayanıqlılığına dair daha dərin təhlil aparılmışdır. Bundan əlavə, tədqiqatın nəticələri, neftdən asılı olan iqtisadiyyatların diversifikasiyası və alternativ inkişaf strategiyalarının nəzərdən keçirilməsi baxımından da dəyərli məlumat mənbəyi olacaqdır.

## Nəzəri çərçivə

Neoklassik iqtisadi nəzəriyyə iqtisadi artımın əsas qaynaqlarını kapital yığımı, texnoloji tərəqqi və əmək resurslarının səmərəli istifadəsi kimi müəyyənləşdirir. Bu yanaşma Solow-Swan iqtisadi artım modeli ilə izah olunur və iqtisadi inkişafın uzunmüddətli perspektivdə davamlı olması üçün fiziki kapital yığımının, texnologiya transferinin və əhalinin səmərəli məşğulluğunun əhəmiyyətini vurğulayır. Neoklassik nəzəriyyəyə əsasən, iqtisadiyyatın inkişafı yalnız resurs bolluğu ilə deyil, bu resursların necə bölüşdürülməsi və istifadə olunması ilə də müəyyən edilir. Solow modelinə görə, neft kimi təbii resurslardan əldə edilən gəlirlər kapital yığımına yönəldildiyi təqdirdə, ölkə iqtisadiyyatı uzunmüddətli artımı təmin edə bilər. Bunun əsas səbəbi odur ki, istehsal amillərinin səmərəli bölgüsü iqtisadi artım üçün əsaslı baza yaradır. Robert Solov və Trevor Svanın inkişaf etdirdiyi modelə görə, uzunmüddətli iqtisadi artımın həlledici faktoru texnoloji tərəqqidir [1]. Neft ixracından əldə edilən gəlirlərin yalnız dövlət xərclərinə yönəldilməsi deyil, həm də texnoloji innovasiyalara və infrastruktur layihələrinə sərmayə kimi istifadəsi iqtisadi artımı dəstəkləyən başlıca elementlərdən biridir. Mankiv, Romer və Veil tərəfindən irəli sürülən modellər də göstərir ki, fiziki kapitalın artırılması ilə yanaşı, insan kapitalının inkişaf etdirilməsi və texnologiyanın mənimsənilməsi iqtisadi artımın əsas hərəkətverici qüvvələrindəndir. Neoklassik model çərçivəsində əsas qənaət odur ki, neft gəlirlərinin kapital yığımına yönəldilməsi, yalnız qısamüddətli iqtisadi inkişaf üçün deyil, həm də uzunmüddətli dayanıqlı artım üçün mühüm əhəmiyyət kəsb edir [4].




**Şəkil 1. Solow-Swan iqtisadi artım modeli**

Endogen iqtisadi artım nəzəriyyəsi iqtisadi artımın əsasən daxili amillərdən qaynaqlandığını və davamlı inkişaf üçün bilik, innovasiya və insan kapitalının mühüm rol oynadığını irəli sürür. Paul Romer və Robert Lukas tərəfindən təkmilləşdirilən bu modelə əsasən, iqtisadi artım yalnız xarici amillərə və resurs bolluğuna deyil, həmçinin bilik bazasının genişlənməsi, tədqiqat və inkişaf fəaliyyətləri (R&D) və insan kapitalına edilən sərmayələrə əsaslanır. Romer-in fikrincə, innovasiya proseslərinin davamlı olması üçün iqtisadiyyat bilik yaratmağa və onu məhsuldar sahələrə tətbiq etməyə yönəlməlidir. Neft gəlirlərinin bilik və təhsil sektoruna yatırılması bu model çərçivəsində iqtisadi inkişafın ən effektiv strategiyalarından biri kimi qiymətləndirilir [3]. Robert Lukas tərəfindən təqdim edilən insan kapitalı modeli isə iqtisadi artımın əsas şərtlərindən birinin bilik və bacarıqların artırılması olduğunu vurğulayır. Lucas hesab edir ki, insan kapitalına edilən sərmayələr uzunmüddətli iqtisadi inkişafı təmin edə bilər və ölkələr arasında iqtisadi fərqlərin əsas səbəbi məhz bu faktorun qeyri-bərabər paylanmasıdır [1].

İqtisadi dövrlər nəzəriyyəsi iqtisadi artımın və tənəzzülün təbii bir proses olduğunu və müəyyən dövrlərdə dalğalanmaların qaçılmaz olduğunu vurğulayır. Jozef Şumpeterin “yaradıcı dağıdıcı” konsepsiyası bu nəzəriyyənin əsasını təşkil edir. Şumpeterə görə, iqtisadi böyümə yalnız resurs gəlirləri ilə deyil, həm də texnoloji innovasiyalarla və struktur islahatlarla müəyyən edilir. O, iqtisadi dövrlərin əsas səbəbinin bazar sistemində yeni texnologiyaların meydana çıxması və köhnə istehsal üsullarının sıradan çıxması olduğunu bildirir. Neft gəlirlərinə əsaslanan iqtisadi sistemlərdə konjonktural dalğalanmaların daha güclü olması müşahidə edilə bilər, çünki enerji resurslarının qiymətləri qlobal bazarlarda dəyişkəndir və bu, iqtisadi tsikllərə təsir edir. Börns və Mitçell tərəfindən aparılan tədqiqatlar göstərir ki, iqtisadi dövrlər müxtəlif amillərdən asılı olaraq fərqli intensivlikdə baş verə bilər. Neft gəlirlərinin yüksək olduğu dövrlərdə iqtisadiyyat süni sürətdə genişlənir, lakin qiymət azalması baş verdikdə böhran yaranır və iqtisadi tənəzzül prosesi başlaya bilər. Kidland və Preskott isə iqtisadi dövrlərin stokastik xarakterini vurğulayaraq göstərmişlər ki, iqtisadiyyatın böhranlardan qorunması üçün çevik siyasətlərə ehtiyac var. Bu yanaşmaya əsasən, neft gəlirlərinin dövlət xərclərinə və infrastruktur layihələrinə yönəldilməsi uzunmüddətli dövrlər ərzində iqtisadi tsikllərin yumşaldılmasına kömək edə bilər [5].

Maliyyə resursları paradoksu iqtisadi inkişafla təbii resurslar arasında əlaqənin birmənalı olmadığını vurğulayan yanaşmalardan biridir. Ceffrey Saks və Andryu Uorner tərəfindən aparılan tədqiqatlar göstərmişdir ki, resurs bolluğuna malik ölkələr həmişə daha sürətli iqtisadi inkişaf etmir. Bu tədqiqatçılar qeyd edirlər ki, neft gəlirlərinin qeyri-effektiv idarə olunması və institusional zəiflik kimi amillər iqtisadi dayanıqlılığa mənfi təsir edə bilər. Maliyyə resursları paradoksu nəzəriyyəsinə əsasən, iqtisadi inkişafın təmin olunması üçün yalnız neft gəlirlərinin yüksək olması kifayət etmir; effektiv institusional sistem və struktur islahatlar əsas şərtlərdən biridir [6]. Bu iqtisadi nəzəriyyələr neft gəlirlərinin iqtisadi artıma təsirini müxtəlif prizmadan izah edir. Neoklassik yanaşma kapital yığımına və texnoloji tərəqqiyə, endogen iqtisadi artım nəzəriyyəsi isə bilik və innovasiyalara əsaslanır. İqtisadi dövrlər nəzəriyyəsi neft gəlirlərinin dəyişkən xarakterini vurğulayır, maliyyə resursları paradoksu isə resurs bolluğunun iqtisadi inkişaf üçün həmişə üstünlük təşkil etmədiyini bildirir. Bu nəzəri yanaşmalar neft gəlirlərinin iqtisadi inkişafda oynadığı rolu daha sistemli və dərinlikli şəkildə anlamaq üçün əsaslı çərçivə təqdim edir.

### Azərbaycan Respublikasında ÜDM-ni formalaşdıran əsas amillər

Azərbaycan Respublikasının Ümumi Daxili Məhsulu (ÜDM) ölkənin iqtisadi fəaliyyətinin ümumi göstəricisidir və onun formalaşmasında müxtəlif amillər rol oynayır. Azərbaycanın iqtisadiyyatı tarixən neft və təbii qaz sektoruna əsaslansa da, son illərdə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində addımlar atılmışdır. ÜDM-nin strukturunda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri kimi müxtəlif sektorlar mühüm yer tutur. Lakin neft və qaz sektoru hələ də iqtisadiyyatın lokomotivi olaraq qalır və ölkənin iqtisadi dinamikasına birbaşa təsir göstərir [2]. Azərbaycan ÜDM-nin formalaşmasında neft və qaz sektorunun rolu müstəsnadır. Xüsusilə, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin və Cənub Qaz Dəhlizinin istismara verilməsi ilə ölkənin enerji resursları qlobal bazarlara daha geniş miqyasda ixrac edilməyə başlamışdır. Neft və qaz ixracı yalnız dövlət büdcəsinin əsas gəlir mənbəyi olmaqla yanaşı, həm də xarici ticarət balansında üstünlük təşkil edir. Azərbaycan Dövlət Neft Fondu (SOFAZ) vasitəsilə neft gəlirlərinin idarə edilməsi ölkənin makroiqtisadi sabitliyinin təmin edilməsinə yönəldilmişdir. Bu gəlirlər sosial xərclərin, infrastruktur layihələrinin və investisiya

proqramlarının maliyyələşdirilməsində mühüm rol oynayır [8].

Azərbaycan iqtisadiyyatında sənaye sektoru ÜDM-in əsas formalaşdırıcı amillərindən biridir. Məsələn, 2023-cü ildə ÜDM-in 40,5%-i sənaye sektorunun payına düşmüşdür. Xüsusilə, neft-kimya və enerji istehsalı bu sektorun önəmli hissəsini təşkil edir. Bununla yanaşı, son illərdə qeyri-neft sənayesinin inkişafı istiqamətində müxtəlif təşəbbüslər irəli sürülmüşdür. Məsələn, Sumqayıt Kimya Sənaye Parkı və digər sənaye parklarının yaradılması qeyri-neft sənayesinin gücləndirilməsi məqsədini daşıyır. Bu yanaşma iqtisadiyyatın daha dayanıqlı olmasını və ÜDM-in yalnız xammal ixracına deyil, həm də yerli istehsala əsaslanmasını hədəfləyir [9]. Ticarət və nəqliyyat sektoru Azərbaycanın iqtisadi inkişafına mühüm töhfə verən amillərdən biridir. Xüsusilə, tranzit imkanlarının genişləndirilməsi ölkənin regional ticarət və logistika mərkəzinə çevrilməsinə şərait yaradır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu kimi infrastruktur layihələri Azərbaycanın nəqliyyat və logistika sahəsində strateji mövqeyini gücləndirir. Bu sektor 2023-cü ilin göstəricilərinə əsasən, ÜDM-in 10%-dən çoxunu təşkil edir və qeyri-neft sektorunun inkişafı baxımından böyük potensiala malikdir [7]. Kənd təsərrüfatı və ərzaq istehsalı Azərbaycanın ÜDM-nin formalaşmasında mühüm rol oynayan sahələrdən biridir (5.5%). Aqrar sektor xüsusilə regionlarda məşğulluğun təmin olunmasında və ərzaq təhlükəsizliyinin qorunmasında əhəmiyyətlidir. Dövlət tərəfindən kənd təsərrüfatına verilən subsidiyalar, meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi bu sahənin inkişafına yönəlmişdir. Eyni zamanda, yerli aqrar məhsulların ixrac potensialının artırılması məqsədilə müxtəlif proqramlar həyata keçirilir.

Son illərdə Azərbaycanda tikinti sektoru böyük inkişaf mərhələsindən keçmişdir. Paytaxt Bakıda və regionlarda həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, avtomobil yollarının yenidən qurulması və şəhərlərin abadlaşdırılması tikinti sektorunun ÜDM-dəki payını artırmışdır (2023-cü ildə 6.2%). Bu sektor həm dövlət investisiyaları, həm də özəl kapital vasitəsilə maliyyələşdirilir və iqtisadi aktivliyin yüksəlməsinə səbəb olur [10].

Müasir dövrdə informasiya və rabitə sektoru da ÜDM-in formalaşmasında getdikcə daha çox əhəmiyyət kəsb edir. Telekommunikasiya və rəqəmsal iqtisadiyyatın inkişafı yeni iş yerlərinin açılmasına və iqtisadiyyatın diversifikasiyasına töhfə verir. Azərbaycanın "Rəqəmsal İnkişaf və Nəqliyyat" strategiyası çərçivəsində rəqəmsal texnologiyaların tətbiqi və IT sahəsində innovasiyaların genişləndirilməsi bu sektorun inkişafına dəstək verir [11]. Beləliklə, Azərbaycan Respublikasında ÜDM-ni formalaşdıran əsas amillər arasında neft və qaz sektoru aparıcı mövqe tutur. Bununla yanaşı, sənaye, ticarət, nəqliyyat, kənd təsərrüfatı, tikinti və informasiya texnologiyaları kimi sahələr də ölkənin iqtisadi inkişafına mühüm töhfə verir. Qeyri-neft sektorunun inkişafı ÜDM-in davamlı və şaxələndirilmiş artımını təmin etmək baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycanın iqtisadi inkişaf modelində bu sahələrin tarazlaşdırılmış şəkildə inkişaf etdirilməsi ölkənin gələcək iqtisadi dayanıqlılığını gücləndirəcəkdir.

## Neft ixracı gəlirlərinin ÜDM-yə təsiri: statistik təhlil

Neft ixracı gəlirlərinin ÜDM-yə təsirini ölçmək üçün reqressiya analizi vacibdir, çünki bu metod iqtisadi dəyişənlər arasındakı əlaqəni riyazi və statistik baxımdan qiymətləndirməyə imkan verir. Reqressiya modeli neft gəlirlərinin ÜDM-dəki dəyişikliklərlə hansı dərəcədə əlaqəli olduğunu müəyyənləşdirir, təsirin istiqamətini və gücünü ölçür. Həmçinin, bu yanaşma iqtisadi siyasət qərarları üçün əsaslı sübutlar təqdim edərək, neft sektorunun iqtisadi artıma təsirini kəmiyyətcə ifadə etməyə imkan yaradır. Bu baxımdan, aşağıda verilmiş cədvəldəki məlumatlar əsasında Azərbaycan Respublikasında neft ixracından gələn gəlirlərin ÜDM-yə təsirini statistik təhlil etmək mümkündür. Cədvəldəki məlumatlar tradingeconomics.com, globaledge.msu.edu, www.worlddata.info, www.statista.com platformalarından, eləcə də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hesabatlarından əldə edilmişdir.

**Cədvəl 1. İllər üzrə ÜDM və neft ixracı gəlirləri: 2008-2023**

| İl | ÜDM (milyard ABŞ dolları) | Neft ixracı gəlirləri (milyard ABŞ dolları) |
|---|---|---|
| 2008 | 48.85 | 11.4 |
| 2010 | 52.91 | 15.6 |
| 2012 | 69.68 | 20.2 |
| 2014 | 75.24 | 18.4 |
| 2016 | 37.87 | 6.5 |
| 2018 | 47.11 | 15.7 |
| 2020 | 42.69 | 9.3 |

| | | |
|---|---|---|
| 2021 | 54.83 | 13.2 |
| 2022 | 78.81 | 19.4 |
| 2023 | 72.36 | 16.2 |

***Mənbə:*** *Statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl göstərir ki, Azərbaycanın ÜDM-i və neft ixracından əldə edilən gəlirlər arasında güclü bir əlaqə mövcuddur. Xüsusilə, 2012 və 2014-cü illərdə neft ixracı gəlirlərinin artması ÜDM-in də yüksəlməsi ilə nəticələnib, lakin 2016-cı ildə neft gəlirlərinin kəskin azalması ÜDM-in də ciddi şəkildə düşməsinə səbəb olub. 2022-ci ildə neft ixracından gəlirlər artaraq ÜDM-in pik nöqtəyə çatmasına kömək edib, lakin 2023-cü ildə müəyyən azalma müşahidə olunub. Bu tendensiya göstərir ki, Azərbaycanın iqtisadi inkişafı hələ də neft gəlirlərindən yüksək dərəcədə asılıdır. Bu baxımdan, apardığımız reqressiya analizinin nəticələrini aşağıdakı kimi ümumiləşdirmək olar:

**Cədvəl 2. Reqressiya analizinin nəticələri**

| *Regression Statistics* | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Multiple R | 0,869661 | | | | | | | |
| R Square | 0,756311 | | | | | | | |
| Adjusted R Square | 0,72585 | | | | | | | |
| Standard Error | 2,338386 | | | | | | | |
| Observations | 10 | | | | | | | |
| | | | | | | | | |
| ANOVA | | | | | | | | |
| | *df* | *SS* | *MS* | *F* | *Significance F* | | | |
| Regression | 1 | 135,7646 | 135,7646 | 24,82871 | 0,001076 | | | |
| Residual | 8 | 43,7444 | 5,468049 | | | | | |
| Total | 9 | 179,509 | | | | | | |
| | | | | | | | | |
| | *Coefficients* | *Standard Error* | *t Stat* | *P-value* | *Lower 95%* | *Upper 95%* | *Lower 95,0%* | *Upper 95,0%* |
| Intercept | -0,72015 | 3,160303 | -0,22787 | 0,825461 | -8,00782 | 6,567525 | -8,00782 | 6,567525 |
| X Variable 1 | 0,263809 | 0,052943 | 4,982841 | 0,001076 | 0,141721 | 0,385897 | 0,141721 | 0,385897 |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır*

Reqressiya nəticələri göstərir ki, ÜDM və neft ixracından gələn gəlirlər arasında güclü müsbət əlaqə mövcuddur (Multiple R = 0.8697). R2 = 0.7563 olduğuna görə, neft ixracı gəlirlərindəki dəyişmələrin 75.63%-i ÜDM-dəki dəyişikliklərlə izah edilir, bu da modelin güclü izahat qabiliyyətinə malik olduğunu göstərir. Düzəldilmiş R2 (0.7258) modelin uyğunlaşmasının yüksək olduğunu təsdiqləyir. Standart səhv (2.3384) modelin dəqiqliyini qiymətləndirmək üçün istifadə olunur və aşağı olması nəticələrin etibarlı olduğunu göstərir. Müşahidələrin sayı 10 olduğundan, model qısa zaman intervalına əsaslanır, yəni cəmi 10 ilin məlumatlarını əhatə edir, lakin trendi təhlil etmək üçün kifayət qədər məlumat təmin edir.

Dispersiya təhlili (ANOVA) reqressiya modelinin ümumi dəyişkənliyi nə dərəcədə izah etdiyini qiymətləndirir. Regression SS (135.76) və Residual SS (43.74) reqressiya modelinin ümumi dispersiyanın böyük hissəsini izah etdiyini göstərir. F-statistikası 24.83 olub və Significance F (0.0011) səviyyəsində olduqca kiçikdir, bu da modelin statistik olaraq çox əhəmiyyətli olduğunu göstərir. $P < 0.05$ olduğu üçün model təsadüfi nəticələrdən fərqlənir və neft ixracı gəlirlərinin ÜDM-ə təsirinin statistik cəhətdən əhəmiyyətli olduğu təsdiqlənir.

Əmsallar və T-statistikalarına gəlincə isə reqressiya modelində Intercept (-0.72) kimi görünsə də, bu iqtisadi reallıq baxımından əhəmiyyətli deyil, çünki neft ixracı sıfır olan vəziyyət real iqtisadiyyatda mümkün deyil. X Variable 1 (0.2638) göstəricisi isə neft ixracı gəlirləri 1 milyard dollar artdıqda, ÜDM-in orta hesabla 0.26 milyard dollar artdığını göstərir. P-value (0.0011) çox kiçikdir, bu da neft ixracı gəlirlərinin ÜDM-ə təsirinin təsadüfi olmadığını və əhəmiyyətli olduğunu təsdiqləyir. 95% etibar intervalı (0.14 - 0.38) sıfırı əhatə etmir, yəni dəyişənin təsiri statistik baxımdan əhəmiyyətlidir.

Nəticədə, bu reqressiya təhlili Azərbaycanın ÜDM-si ilə neft ixracından əldə edilən gəlirlər arasında güclü və statistik olaraq əhəmiyyətli müsbət əlaqə olduğunu göstərir. Neft ixracı gəlirlərinin artması ÜDM-in yüksəlməsinə səbəb olur, bu isə iqtisadiyyatın hələ də neft sektorundan yüksək asılı olduğunu sübut edir. Neft qiymətlərindəki dalğalanmaların ÜDM-ə təsiri yüksək olduğundan, iqtisadiyyatın şaxələndirilməsi zərurət kimi görünür.

## Nəticə

Azərbaycan iqtisadiyyatının neft gəlirlərindən yüksək dərəcədə asılı olmasının bir neçə əsas səbəbi var. İlk növbədə, ölkənin təbii ehtiyatlarla zəngin olması və neft ixracından yüksək gəlirlər əldə etməsi, iqtisadi inkişafın uzun müddət məhz bu sektor üzərində qurulmasına gətirib çıxarıb. Neft və qaz

sənayesi böyük həcmdə xarici valyuta axını təmin edir, dövlət büdcəsinin mühüm hissəsini təşkil edir və sosial layihələrin maliyyələşdirilməsində əsas rol oynayır. İkinci mühüm səbəb neft sektorunun iqtisadiyyatın digər sahələrindən daha yüksək gəlirlilik və investisiya cəlbediciliyi ilə seçilməsidir. Bu, bir tərəfdən infrastrukturun və sənaye potensialının inkişafına töhfə versə də, digər tərəfdən iqtisadiyyatın qeyri-neft sektorlarının daha yavaş inkişaf etməsinə səbəb olub. Hollandiya xəstəliyi nəzəriyyəsinə əsasən, neft gəlirlərinin artması milli valyutanın möhkəmlənməsinə səbəb ola bilər ki, bu da qeyri-neft ixracatının rəqabət qabiliyyətini azaldır. Üstəlik, qlobal bazarlardakı neft qiymətlərinin dəyişkənliyi, enerji bazarlarında baş verən dəyişikliklər və alternativ enerji mənbələrinin inkişafı kimi faktorlar neft gəlirlərinin uzunmüddətli sabitliyini sual altına qoyur.

Neftdən asılılığın azaldılması və iqtisadiyyatın daha dayanıqlı hala gətirilməsi üçün bir neçə əsas strategiya mövcuddur. İlk növbədə, qeyri-neft sektorunun inkişaf etdirilməsi və sənaye diversifikasiyasının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. İstehsalat və emal sənayesinin inkişafı, yerli məhsulların dünya bazarına çıxış imkanlarının genişləndirilməsi və kənd təsərrüfatına daha çox sərmayə yatırılması bu baxımdan prioritet olmalıdır. İkinci çıxış yolu innovasiya və texnologiyaya əsaslanan iqtisadiyyatın qurulmasıdır. İnformasiya texnologiyaları, rəqəmsal iqtisadiyyat və startap ekosisteminin dəstəklənməsi uzunmüddətli iqtisadi sabitliyin təmin olunmasına kömək edə bilər. Nəhayət, insan kapitalının inkişafı və bilik iqtisadiyyatına keçid də mühüm rol oynayır. Təhsil və elmi araşdırmalara investisiya yatırmaq, yüksəkixtisaslı kadrların yetişdirilməsi və sahibkarlığın inkişafına dəstək vermək qeyri-neft sektorunun genişlənməsinə şərait yarada bilər. Bütün bu tədbirlər iqtisadi sabitliyi artıraraq neft gəlirlərindən asılılığı tədricən azalda bilər və Azərbaycan iqtisadiyyatının daha dayanıqlı və rəqabətədavamlı hala gəlməsinə imkan verər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Devyatkin, D. Contending Economic Theories. Socialism and Democracy, 2013, 27(2), 201–204. https://doi.org/10.1080/08854300.2013.796106*

*2. Əsədov, A. Dünya Bankı: "2023-cü ildə Azərbaycanda real ÜDM-nin artım tempi müsbət olaraq qalır". https://ereforms.gov.az/files/article/pdf/az/68287a87d144b69d919fa49174914487.pdf*

*3. Gilboa, I., Postlewaite, A., Samuelson, L., & Schmeidler, D. Economic theories and their Dueling interpretations. Journal of Economic Methodology, 2022, 31(4), 189–208. https://doi.org/10.1080/1350178X.2022.2142270*

*4. Herfeld, C. Economic methodology to preserve the past? Some reflections on economic theories and their dueling interpretations. Journal of Economic Methodology, 2024, 31(4), 249–264. https://doi.org/10.1080/1350178X.2024.2404187*

*5. Kimberlin, S. E., & Ager, M. Economic Theories of Disability Benefits. Journal of Human Behavior in the Social Environment, 2009, 19(1), 70–84. https://doi.org/10.1080/10911350802631610*

*6. Kwon, H. S. Economic Theories of Low-Wage Work. Journal of Human Behavior in the Social Environment, 2013, 24(1), 61–70. https://doi.org/10.1080/10911359.2014.844615*

*7. Qeyri-neft sektorunun inkişafı (2023-cü il üzrə). URL: https://economy.gov.az/storage/files/files/6299/yUY5C6dFoLmFDuOYjpbSBHAJmyb9dtNLJUtnNyZE.pdf*

*8. Son 20 ildə Azərbaycanda adambaşına düşən ÜDM 2,9 dəfə artıb. https://report.az/maliyye-xeberleri/son-20-ilde-azerbaycanda-adambasina-dusen-udm-2-9-defe-artib/*

*9. 2023-cü ildə Ümumi Daxili Məhsul istehsalı. URL: https://stat.gov.az/news/index.php?lang=az&id=5754*

*10. 2023-cü ilin ilk yeddi ayında Azərbaycanın ÜDM-i 41,4 milyard dollara çatıb. URL: https://turan.az/az/iqtisadiyyat/2023-cu-ilin-ilk-yeddi-ayinda-azerbaycanin-udm-i-414-milyard-dollara-catib-768329*

*11. 2023-cü ilin yanvar-iyul aylarında Ümumi Daxili Məhsul istehsalı. URL: https://www.stat.gov.az/news/index.php?lang=az&id=5583*

*12. Musayev, Y. (2023). FACTORS IMPACTING FAMILY COMPANY CREATION AND GOVERNANCE CHARACTERISTICS.*

*13. Musayev, Y., (2024). REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA MİKRO, KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ROLUNUN TƏDQİQİ. Azərbaycan Memarlıq və İnşaat Universiteti. Tikintinin iqtisadiyyatı və menecment. Elmi-praktik jurnal. vol.29, no.4, 159-172.*


## XÜLASƏ


Tədqiqat Azərbaycan Respublikasında neft ixracı gəlirlərinin ÜDM-ə təsirini reqressiya analizi vasitəsilə qiymətləndirir. Neft sektoru ölkənin iqtisadiyyatında əsas hərəkətverici qüvvə rolunu oynayır

və ÜDM-in formalaşmasında mühüm paya malikdir. Araşdırma nəticələri göstərir ki, ÜDM və neft gəlirləri arasında güclü müsbət əlaqə mövcuddur və R2 göstəricisi 0.7563 səviyyəsindədir. Bu, neft gəlirlərindəki dəyişikliklərin ÜDM-dəki dəyişikliklərin 75.63%-ni izah etdiyini göstərir. Tədqiqatda xətti reqressiya modeli tətbiq edilmiş, ANOVA analizi və əmsalların əhəmiyyətlilik testi ilə nəticələr təsdiqlənmişdir. İqtisadi nəzəriyyələr çərçivəsində Solow-Swan iqtisadi artım modeli, endogen artım nəzəriyyəsi və iqtisadi dövrlər nəzəriyyəsi təhlil edilmişdir. Azərbaycan iqtisadiyyatı hələ də neft gəlirlərindən yüksək dərəcədə asılıdır və iqtisadi diversifikasiya zərurət olaraq qalır. Tədqiqatın nəticələri iqtisadi praktiklər üçün də faydalı ola bilər. Ona görə ki, iqtisadi dayanıqlılığın təmin edilməsi üçün neftdən kənar sektorların inkişaf etdirilməsi vacibdir. İnnovasiya, texnologiya və insan kapitalına yatırımlar uzunmüddətli perspektivdə iqtisadi inkişafın əsas şərtlərindən biri kimi nəzərdən keçirilməlidir.

**Açar sözlər:** *Neft gəlirləri, ÜDM, reqressiya analizi, iqtisadi artım, diversifikasiya.*

**П.Гусейнов**
***Докторант Азербайджанского Государственного Экономического Университета (UNEC)***

## РЕЗЮМЕ

Исследование оценивает влияние доходов от экспорта нефти на ВВП Азербайджанской Республики с помощью регрессионного анализа. Нефтяной сектор играет ключевую роль в экономике страны и занимает значительную долю в формировании ВВП. Результаты анализа показывают, что между ВВП и нефтяными доходами существует сильная положительная связь, коэффициент детерминации ($R^2$) составляет 0,7563. Это означает, что изменения в нефтяных доходах объясняют 75,63% изменений в ВВП. В исследовании применена линейная регрессия, проведен анализ ANOVA и тест на значимость коэффициентов. В теоретической части рассмотрены модели экономического роста Solow-Swan, эндогенного роста и экономических циклов. Экономика Азербайджана по-прежнему сильно зависит от нефтяных доходов, что делает диверсификацию актуальной необходимостью. Результаты исследования могут быть полезны как для экономистов-практиков, так и для исследователей, поскольку для обеспечения экономической устойчивости необходимо развивать сектора, не зависящие от нефти. Вложения в инновации, технологии и человеческий капитал рассматриваются как ключевые условия долгосрочного экономического роста.

**Ключевые слова:** *Нефтяные доходы, ВВП, регрессионный анализ, экономический рост, диверсификация.*

**P.Huseynov**
***Doctoral student of Azerbaijan State University of Economics (UNEC)***

## ABSTRACT

The study assesses the impact of oil export revenues on Azerbaijan’s GDP using regression analysis. The oil sector plays a crucial role in the country's economy and holds a significant share in GDP formation. The findings indicate a strong positive correlation between GDP and oil revenues, with an $R^2$ value of 0.7563. This suggests that changes in oil revenues explain 75.63% of the variations in GDP. The study employs a linear regression model, ANOVA analysis, and coefficient significance tests. Theoretical frameworks such as the Solow-Swan growth model, endogenous growth theory, and business cycle theory are examined. Azerbaijan's economy remains highly dependent on oil revenues, making economic diversification an essential necessity. The study’s findings can be useful for both economic practitioners and researchers, as fostering non-oil sectors is critical for ensuring economic stability. Investments in innovation, technology, and human capital are identified as key factors for long-term economic growth.

**Keywords:** *Oil revenues, GDP, regression analysis, economic growth, diversification*.